# Əhalinin güzəranının yüksək olması güclü iqtisadiyyatdan xəbər verir



***Ölkəmizdə sosial sahə üzrə siyasət uğurla davam etdirilir. Dövlət əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılması üçün mövcud olan bütün imkanlardan maksimum istifadə edir. Ölkəmizdə həyata keçirilən islahatlara nəzər salsaq görərik ki, vətəndaşların güzəranını daha yüksək standartlara çatdırmaq üçün xeyli işlər görülür. Respublikamızda sosial müdafiə sistemi tamamilə yenilənir və ünvanlılıq prinsipinə üstünlük verilir. Bu sahə üzrə uğurlu islahatlar aparılıb, eləcə də sosial müdafiə sisteminin gücləndirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin həcmi artırılıb.***

Son illər ərzində bir neçə dəfə böyükmiqyaslı sosial paketlər təsdiq edilib. Qeyd edək ki, təkcə 2019-cu ildə təsdiq edilən paket 4 milyondan çox vətəndaşa şamil edilmişdir. Azərbaycanda minimum əməkhaqqı və pensiyalar mütəmadi olaraq artırılır. Bu da, onu deməyə əsas verir ki, əhalinin rifahının yaxşılaşdırılması dövlətimizin əsas daxili siyasət istiqamətidir. Prezident İlham Əliyevin də dediyi kimi, Azərbaycanda vətəndaşların rifahı, yaşayış səviyyəsi daim diqqət mərkəzindədir. Bu fikirləri bizimlə söhbətində kənd təsərrüfatı üzrə fəlsəfə doktoru İbrahimxəlil İbrahimov bildirdi.

O dedi: – Azərbaycanda əhalinin həyat şəraitinin yaxşılaşdırılması üçün xidmət edən xüsusi proqram layihələri davamlı sürətdə həyata keçirilir. Belə tədbirlər sayəsində ölkəmizdə bütün təbəqələr üzrə əhalinin rifahı yaxşılaşıb, sosial dövlət modeli yaranıb. Bizim sosial dövlət modelimiz bir çox ölkə üçün nümunə təşkil edir.

Təbii ki, hər ölkənin əsas fəaliyyət istiqamətlərindən biri əhalinin maddi rifahını yaxşılaşdırmaq, xüsusi diqqətə ehtiyacı olan həssas təbəqənin qayğısına qalmaqdır. Şübhəsiz ki, bu, ölkəmiz üçün də belədir. Azərbaycanda dövlət büdcəsinin üçdəbirindən çox hissəsi sosial sahəyə yönəlmişdir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev 17 və 20 oktyabrda ölkə üzrə minimum əməkhaqqının, eləcə də bir sıra təqaüdlərin artırılmasına dair sərəncam imzaladı. Ölkənin iqtisadi-sosial həyatının dövlət proqramları üzrə inkişaf etdirilməsi dünya təcrübəsində effektli inkişaf modeli sayılır. Qeyd edək ki, ölkəmizdə bu istiqamətdə 30-dan çox dövlət proqramı qəbul edilib. Bununla yanaşı, tətbiq edilən ünvanlı sosial yardım proqramı ilə ölkəmizdə hər il yüz minlərlə aztəminatlı ailəyə müavinət verilir. Peşə istiqaməti, məşğulluq proqramları ilə hər il on minlərlə şəxs işlə təmin edilir. Sonuncu paket isə 2022-ci ilin əvvəlindən tətbiq ediləcək.

Dekabrın 17-də imzalanan sərəncama əsasən, minimum əməkhaqqı 250 manatdan 300 manata yüksəldildi. Artım 800 min nəfərə şamil ediləcək. Son üç ilin göstəricilərinə nəzər salsaq görərik ki, bu, böyük göstəricidir. Belə ki, əgər 2018-ci ildə minimum əməkhaqqı 130 manat idisə indiki sərəncama əsasən 300 manat olacaq. Bu da 2,3 dəfə artım deməkdir.

Növbəti fərman və sərəncamlar isə dekabrın 20-də imzalandı. Beləliklə, bu sənədlərə görə, əlilliyi olan şəxslərin, xəstə uşaqların, ailə başçısını itirdiyinə görə və yaşa görə müavinət alanların, müddətli hərbi xidmətdə olanların uşaqları, eləcə də uşaqların qəyyumlarının bir yaşadək uşağı olan aztəminatlı ailələrin, beşdən çox uşağı olan qadınların, övladlığa uşaq götürənlərin və s. təqaüd və müavinətlərində artım olacaq.

Bütün bunlar onu göstərir ki, ölkəmizdə həyata keçirilən dövlət proqramlarının əksəriyyəti əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına hesablanır. Respublikamızda vətəndaşların rifahının daha da yaxşılaşdırılması üçün mütəmadi olaraq yeni dövlət proqramları və müvafiq islahatlar həyata keçirilir.

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 22 dekabr.- S.7.